


# İlk yarış gününə uğurla başlayan karateçilərin sevincini PREZİDENT də bölüşdü

**IV İslam Həmrəyliyi Oyunlarında idmançılarımızın qələbəsi davam edir. Azarkeşlərin böyük maraqla izlədiyi və medal gözlədiyi idman növləri içərisində karate xüsusi yer tutur. Dünən Bakı İdman Sarayında karate yarışlarına start verilib. Yarışın ilk günü Azərbaycan karateçiləri üçün uğurlu oldu və onlar aktivlərinə 2 qızıl, 1 gümüş və 2 bürünc medal yazdırıblar.**

İdmançılarımız kumite döyüşlərində güclərini sınayıblar. Kumite yarışlarında qadınlar 50, 55 və 61, kişilər isə 60, 67 və 75 kq çəki dərəcələrində döyüşdülər. Azərbaycanı qadınların yarışında Nuranə Əliyeva (50 kq), İlahə Qasımova (55 kq), Fəridə Abiyeva (61 kq), kişilərin mübarizəsində isə Firdovsi Fərzəliyev (60 kq), Niyazi Əliyev (67 kq) və Rəfael Ağayev (75 kq) təmsil ediblər.

Ölkəmizə karatedə ilk qızıl medalı Fəridə Abiyeva qazandırıb. Kumite yarışında 61 kiloqram çəki dərəcəsində yarışan Fəridə mübarizəyə 1/8 final mərhələsindən qoşulub. Çad təmsilçisi Viktorine Koro üzərində 8:0 hesabı ilə inamlı qələbə qazanan təmsilçimiz dörddəbir finalda Fil Dişi Sahili idmançısı Koussai Ahia Aurelie Estellenlə qarşılaşıb. Bu görüşü də 2:0 hesabı ilə qalib başa vuran idmançımız yarımfinalda özbəkistanlı həmkarı ilə qarşılaşıb. Bu döyüşdən də 3:2 hesablı qələbə ilə ayrılan Fəridə adını finala yazdırıb. Həlledici görüşdə Fəridə Abiyeva iranlı Rozita Əlipurkaşkalesadı 3:0 hesabı ilə məğlub edərək İslamiadada çempion adını qazanıb.



55 kq çəki dərəcəsində yarışan İlahə Qasımova da bütün rəqiblərinə qalib gələrək finala vəsiqə əldə edib. Lakin həlledici görüşdə uduzan təmsilçimiz İslamiadanı gümüş medalla başa vurub.

Beşqat dünya çempionu Rəfael Ağayev yarışa səkkizdəbir final mərhələsindən qoşulub. 75 kq çəki dərəcəsində yarışan təmsilçimiz ilk görüşünü Türkiyə idmançısı Erman Eltemerə qarşı keçirib və 3:0 hesabı ilə qələbə qazanıb. Karateçimiz dörddəbir finalda Səudiyyə Ərəbistanı idmançısı Sultan Əl Zəhranidən üstün olub-7:2. Yarımfinalda Rəfaelin rəqibi Malayziya təmsilçisi Şarmendran Ragonathanı olub. Görüşdə 5:0 hesabı ilə qələbə qazanan Rəfael finala vəsiqə qazanıb.

*Ardı 2-ci səh.*

BAKU 2017 4th Islamic Solidarity Games

# 2 qızıl, 1 gümüş, 2 bürünc









Əvvəli 1-ci səh.

Rəfael Ağayevin final qarşılaşmasına dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və ailə üzvləri də baxıblar. Həlledici görüşdə Pakistan təmsilçisi Qulam Abbasa qalib gələn (4:0) Rəfael IV İslam Həmrəyliyi Oyunlarının çempionu olub.

Mükafatlandırma mərasimində Rəfael Ağayev və Fəridə Abiyevaya qızıl medalları Prezident İlham Əliyev təqdim edib.

60 kiloqram çəki dərəcəsində mübarizə aparan Firdovsi Fərzəliyev bütün görüşləri qalib başa vuraraq yarımfinala yüksəlib. Lakin o, bu mərhələdə türkiyəli Kaya Aykuta uduzaraq finala yüksəlmək şansını əldən verib. Buna baxmayaraq təmsilçimiz İslamiadanı mükafatla başa vurub. Bürünc medal uğrunda görüşdə indoneziyalı Suryadi Suryadi ilə üz-üzə gələn Firdovsi rəqibi üzərində 6:0 hesabı ilə inamlı qələbə qazanaraq IV İslam Həmrəyliyi Oyunlarının bürünc medalına yiyələnib.

Qadınlar arasında kumite yarışlarında 50 kiloqram çəki dərəcəsində çıxış edən Azərbaycan idmançısı Nuranə Əliyeva da IV İslam Həmrəyliyi Oyunlarının bürünc medalını qazanıb. Yarımfinalda iranlı Doustı Nasrinə uduzan həmyerlimiz bürünc medal uğrunda döyüşdə yarışıb. Xanım idmançımız üçüncü yer uğrunda görüşdə indoneziyalı Srunita Sukatendel ilə gərgin keçən görüşdə qalib gəlib.

*Elçin CƏFƏROV,*
*Fərman BAĞIROV (foto),*
*"Azərbaycan"*



**Azərbaycan.- 2017.- 14 may.- S. 1-2.**